**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 333 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzinin yaradılması ilə əlaqədar qərara alıram:

I. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində Mərkəzi ştat vahidlərinin ayrılması, Mərkəzin fəaliyyətinin təminatı ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini həll etsin.

III. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**

**HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 12 iyul 2000-ci il**

**№ 364**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2884.**